**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"14" 02 2025-ci il

# FƏNN SİLLABUSU

**İxtisas:** 050408-Menecment, 050402-Biznesin idarə edilməsi , 050409-Mühasibat, 050404-Dövlət və bələdiyyə idarəetməsi, 050809-Turizm bələdçiliyi, 050407-Marketinq , 050810-Turizm işinin təşkili .
**Fakültə:** İqtisadiyyat və idarəetmə
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I. Fənn haqqında məlumat**
**Fənnin adı:** Azərbaycan tarixi (Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 12 noyabr 2021-ci il tarixli F-526 saylı əmri ilə təsdiq edilmişdir. Xırdalan, 2021)
**Kodu:** HF-B01
**Tədris ili:** I (2024-2025) Semestr: II
**Tədris yükü:** 150 saat. Auditoriya yükü: (30 saat mühazirə 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit sayı:** 5 kredit
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** dos. İmanlı Asif Abdulağa oğlu
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, Ə.Məmmədov küçəsi, 22.
**Məsləhət saatı:** IV-V günlər saat: $14^{00}$-$16^{00}$
**E-mail ünvanı:** asif.imanli1974@mail.ru
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

1. Azərbaycan tarixi: 7 cilddə, AMEA, Bakı, Elm, 2007.
2 .Azərbaycan tarixi: III cilddə, I cild. Bakı, 1998.
3. Azərbaycan tarixi: I hissə (Ali məktəblər üçün dərslik). Z Bunyadov, Y.Yusifovun redaktəsi ilə. Bakı, 1994, 719 s.
4.Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. S.S.Əliyarlının redaktəsi ilə. Bakı. 1996.
5. Azərbaycan tarixi (Oçerklər). Rəcəbli Q.Ə. Bakı, Elm və təhsil, 2013, 542 səh.
6. Azərbaycan tarixi: (Ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək) Abdullayev M. Bakı, 2016
7. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, Avrasiya press, 2006, 416 s.
8. Bunyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007, 235 s.
9. Qaşqay S. Manna dövləti. Bakı, 1993, 130 s.
10. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb,1993, 2007, 300 s.
11. Fazili Abdulla. Atropatena er.əv. IV – er.VII əsri. Bakı, Elm, 1992, 216 s.
12. Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı, Araz nəşriyyatı, 2002, 152 s.
13. Şərifli M. IX əsrin ikinci yarısı-XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, Elm, 1978, 242 s.
14.Vəlixanlı.N. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993. 170 s
15.Mustafayev C.M. Azərbaycan xanlıqlar dövründə. Bakı, 2012, 256 s.
16. İsmayılov İ.Z. Azərbaycanlıların II Dünya müharibəsində iştirakı. Bakı, 2000, 192 səh.
17.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, 112 səh.
18. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 279 səh.

**IV. Prerekvizitlər:** Azərbaycan tarixi fənninin tədrisi üçün tələbələrə öncədən digər fənlərin də tədris olunmasına zərurət yoxdur.
**V. Korekvizitlər:** Azərbaycan tarixi fənninin tədrisi ilə eyni vaxtda digər fənlərin də tədris olunmasına zərurət yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:** Azərbaycan tarixinin tədrisi Vətən tarixinin mənimsənilməsi elmidir. Vətən tarixini öyrənməklə hər bir vətəndaş özünün milli mentaliteti ilə tanış olur. Tələbə Azərbaycanın ibtidai icma dövrü tarixindən başlayaraq müasir dövrə qədər olan tarixi mənimsəmiş olur. Burada o, erkən dövlət qurumlarını, qədim dövlətlər olan Manna, Atropatena, Albaniyanı, Azərbaycanın Sasanilər və Xilafət hakimiyyətinə tabe olan dövrləri, Azərbaycanda feodal dövlətlərinin yaranması tarixini, Səlcuqların Azərbaycana gəlməsi və Atabəylər dövləti tarixini, Monqol işğalları dövrünü, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin yaranması tarixini, Səfəvilər dövlətinin tariximizdə mühüm rolunu, xanlıqların daxili və xarici siyasətini, Azərbaycanın Rusiya və İran arasında bölüşdürilməsinin mərhələlərini, XX əsrin əvvələrində baş verən ictimai-siyasi hadisələri, Azərbaycan Xalq Cumhuriyyətinin tariximizdə misilsiz rolunu, Azərbaycanda sovet rejiminin qurulması və II Dünya müharibəsində faşizim üzərində qələbədə vətənimizin əvəzsiz xidmətlərini, XX əsrin 70-80-ci illərində Azərbaycanda social-iqtisadi və mədəni inkişafını, 1990-cı il 20 Yanvar hadisələr, Dövlət müstəqilliyinin bərpa olunması və Azərbaycan müsdəqilliyin ilk illərində, Xocalı faciəsi, Milli qurtuluş, Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı, Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi, 2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi və Azərbaycanın davamlı inkişafı, İkinci Qarabag müharibəsi, Zəfər Qələbəsi tarixini öyrənməklə Vətən tarixini öyrənmiş olur. Azərbaycan tarixini bu fənnə dair akademik nəşrlərdən öyrənmək, eyni zamanda ayrı-ayrı mövzulara aid monoqrafiyalarla tanış olmaq, Azərbaycan tarixinin tarixşünaslığına və mənbəşünaslığına diqqət yetirmək, Vətən tarixini öyrənməklə Vətəni sevmək və Vətəni sevməyi öyrətmək əsas məqsədir.

CamScanner ilə skan edilib

**VII. Davamiyyətə verilən tələblər:** : Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elm Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə, 30 bal kollokviumların nəticələrinə görə. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

Qiymət meyarları aşağıdakılardır:

- *10 bal- tələbə keçirilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
- *9 bal-tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam açə bilir.*
- *8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
- *7 bal- tələbə keçirilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
- *6 bal- tələbənin cavabı əsasən düzgündür.*
- *5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
- *4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
- *3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
- *1-2 bal- tələbənin mövzudan qismən xəbəri var.*
- *0 bal- suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam – intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.

**X. Təqvim-mövzu planı:** Mühazirə 30 saat, seminar 15 saat

| № | Keçirilən mühazirə və seminar mövzuları | Müh. | Sem. |
|---|---|---|---|
| 1 | **Mövzu: Azərbaycanda ilkin dövlət qurumları - (Kuti, Lullubi) və Manna dövləti**<br>**Plan:**<br>1. Azərbaycanda ilkin dövlət qurumları – Kuti və Lillubi<br>2. Manna dövləti | 2 | |
| 2 | **Mövzu: Azərbaycan ərazisində qədim dövlətlər**<br>**Plan:**<br>1. Atropatena dövləti<br>2. Albaniya dövləti | 2 | 2 |
| 3 | **Mövzu: Azərbaycan erkən orta əsrlərdə (III-VII əsrlər)**<br>**Plan:**<br>1.Azərbaycanda feodal münasibətlərinin yaranması və onun xüsusiyyətləri<br>2. Sasanilərin Azərbaycanı işğal etməsi və onlara qarşı üsyanlar | 2 | |
| 4 | **Mövzu: Azərbaycan VII-IX əsrlərdə**<br>**Plan:**<br>1.Ərəb Xilafətinin Azərbaycanı işğal etməsi. İslam dininin yayılması 2.Xilafətin Azərbaycanda idarəçilik, köçürmə, torpaq və vergi siyasəti<br>3.Xürrəmilər hərəkatı. Babəkin başçılığı ilə ərəblərə qarşı azadlıq müharibəsi | 2 | 2 |
| 5 | **Mövzu: Azərbaycan IX-XII əsrlərdə**<br>**Plan:**<br>1. Azərbaycanın IX-XI əsr feodal dövlətləri (Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər və Rəvvadilər)<br>2.Azərbaycan Səlcuq imperiyasının tərkibində<br>3. Atabəylər dövləti | 2 | |
| 6 | **Mövzu: Azərbaycanda monqol əsarəti**<br>**Plan:**<br>1. Monqolların Azərbaycana yürüşləri<br>2. Azərbaycan Hülakülər dövlətinin tərkibində | 2 | 2 |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| 7 | **Mövzu: XIV əsrin II yarısı XV əsr Azərbaycan dövlətləri**<br>**Plan:**<br>1. XIV əsrin II yarısında Əmir Teymurun və Qızıl Orda xanı Toxtamışın Azərbaycana yürüşləri<br>2. Qaraqoyunlu dövləti<br>3. Ağqoyunlu dövləti | 2 | |
| 8 | **Mövzu: Azərbaycan Səfəvilər dövləti**<br>**Plan:**<br>1.Səfəvilər dövlətinin yaranması<br>2.Səfəvi-Osmanlı müharibələri və onların nəticələri | 2 | 2 |
| 9 | **Mövzu: Azərbaycan xanlıqlar dövründə**<br>**Plan:**<br>1. Nadir şah imperiyasının yaranması və süqutu<br>2.Azərbaycanda xanlıqlarının yaranması, onların sosial-iqtisadi və siyasi vəziyyəti | 2 | |
| 10 | **Mövzu: Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi. Rusiyanın müstəmləkə siyasətinə qarşı üsyanlar.**<br>**Plan:**<br>1.Azərbaycanda Rusiya işğallarının başlanması (1801-1804)<br>2.Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin birinci mərhələsi-Gülüstan müqaviləsi (1804-1813)<br>3.Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin ikinci mərhələsi-Türkmənçay sülhü. (1826-1828)<br>4.XIX əsrdə Azərbaycanda Rusiyanın müstəmləkə siyasətinə qarşı üsyanlar | 2 | 2 |
| 11 | **Mövzu: Azərbaycan XX əsrin əvvəllərində**<br>**Plan:**<br>1.XX əsrin əvvəllərində Azərbaycanda milli demokratik hərəkat<br>2.Azərbaycan I Dünya müharibəsi illərində<br>3.1918-ci il mart soyqrımı. Bakı Xalq Komissarları Soveti və onun antiazərbaycan siyasəti | 2 | |
| 12 | **Mövzu: Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920-ci illər)**<br>**Plan:**<br>1.Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi və Azərbaycanın bütün ərazisinə yayılması<br>2.Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu və süqutu | 2 | 2 |
| 13 | **Mövzu: Azərbaycan sovet rejimi və II Dünya müharibəsi dövründə (1920-1945-ci illər)**<br>**Plan:**<br>1.Azərbaycanda sovet rejiminin yaradılması, DQMV-nin və Naxçıvan MSSR-in təşkili. Kütləvi represiyalar<br>2.Azərbaycan SSR 1941-1945-ci illər II dünya müharibəsi illərində | 2 | |
| 14. | **Mövzu: Azərbaycan SSR 1945-1991-ci illərdə.**<br>**Plan:**<br>1.Azərbaycan SSR II Dünya müharibəsindən sonrakı dövrdə<br>2.Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycan SSR-də apardığı quruculuq işləri<br>3.1990-cı il 20 Yanvar faciəsi | 2 | 2 |
| 15 | **Mövzu: Azərbaycan müstəqillik dövründə**<br>**Plan:**<br>1.Birinci Qarabağ müharibəsi, Azərbaycan torpaqlarının işğalı. Xocalı faciəsi<br>2.Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı. "Əsrin müqaviləsinin" imzalanması. Azərbaycanın yeni neft strategiyası<br>3.2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi və Azərbaycanın davamlı inkişafı<br>4.Azərbaycan Respublikasının xarici əlaqələri<br>5.2016-cı il Aprel döyüşləri. İkinci Qarabag müharibəsi. Zəfər Qələbəsi | 2 | 1 |

**XI. Fənn üzrə tələblər**

Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
Öyrənən tanış olur:

- Azərbaycan tarixi fənninin mövzuları ilə tanışlıq,
- Fənn üzrə problemlərinin araşdırılması və təhlilini aparmaq,
- Vətənimizin qədim və müasir tarixi məsələlərinin ardıcıl və əlaqəli izahına səy göstərmək
- Azərbaycan tarixi fənninin müxtəlif dövrlər üzrə problemlərinə diqqət yetirmək-
- Milli dövlətçilik tarixi məsələlərə obyektiv yanaşmaq

**XII. Fənn üzrə təlimin nəticələri**

- Azərbaycan tarixinin aktual istiqamət və preblemlərini mənimsəyir
- Azərbaycan tarixinin müxtəlif dövrlərini öyrənir
- Milli dövlətçilik tarixi və onun müxtəlif dövrlərdə spesifik xüsusiyyətlərini mənimsəyir

CamScanner ilə skan edilib

-Azərbaycan tarixinin vətənpərvərlik və azərbaycançılıq ideologiyaya yiyələnir
-Müasir Azərbaycan dövlətinin daxili və xarici siyasətlərinin əsas istiqamətlərini mənimsəyir
-Azərbaycan tarixinin öyrənilməsində müstəqil elmi bacarığına naiil olur

**XIII. Tələbələri fənn haqqında fikrinin öyrənilməsi:**

**XIV. Kollekvium sualları:**

**I Kollekvium sualları**

1. Azərbaycanda ilkin dövlət qurumları (Kuti və Lullubi)
2. Manna dövləti
3. Atropatena dövləti
4. Albaniya dövləti
5. Azərbaycanda feodal münasibətlərinin yaranması və onun xüsusiyyətləri
6. Ərəb Xilafətinin Azərbaycanı işğal etməsi. İslam dininin yayılması
7. Xürrəmilər hərəkatı. Babəkin başçılığı ilə ərəblərə qarşı azadlıq müharibəsi
8. Azərbaycanın IX-XI əsr feodal dövlətləri
9. Atabəylər dövləti
10. Monqolların Azərbaycana yürüşləri

**II Kollekvium sualları**

1. Qaraqoyunlu dövləti
2. Ağqoyunlu dövləti
3. Səfəvilər dövlətinin yaranması
4. Səfəvi-Osmanlı müharibələri və onların nəticələri
5. Nadir şah imperiyasının yaranması və süqutu
6. Azərbaycan xanlıqları
7. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin birinci mərhələsi-Gülüstan müqaviləsi (1804-1813)
8. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin ikinci mərhələsi-Türkmənçay sülhü. 1826-1828)
9. Azərbaycan I Dünya müharibəsi illərində
10. 1918-ci il mart soyqırımı. Bakı Xalq Komissarları Soveti və onun antiazərbaycan siyasəti

**XV İmtahan sualları:**

1. Azərbaycanda ilkin dövlət qurumları (Kuti və Lullubi)
2. Manna dövləti
3. Atropatena dövləti
4. Albaniya dövləti
5. Azərbaycanda feodal münasibətlərinin yaranması və Sasani əsarəti (III-VI əsrlər)
6. Azərbaycan Ərəb Xilafətinin tərkibində. İslam dinin Azərbaycanda yayılması (VII-IX əsrlər)
7. Xürrəmilər hərəkatı. Babəkin başçılığı ilə ərəblərə qarşı azadlıq müharibəsi
8. IX-XI əsr Azərbaycan feodal dövlətləri
9. Azərbaycan Atabəylər dövləti (1136-1225)
10. Monqolların Azərbaycana yürüşləri
11. Hülakülər dövləti. Qazan xan
12. Qaraqoyunlu dövləti (1410-1468)
13. Ağqoyunlu dövləti (1468-1501)
14. Səfəvilər dövlətinin yaranması
15. Səfəvi-Osmanlı müharibələri və onların nəticələri
16. Azərbaycan Nadir şahın hakimiyyəti dövründə (1736-1747)
17. Azərbaycan xanlıqları
18. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin 1-ci mərhələsi (1804-1813). Gülüstan müqaviləsi
19. Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin 2-ci mərhələsi (1826-1828). Türkmənçay müqaviləsi
20. XIX əsrdə Azərbaycanda Rusiyanın müstəmləkə siyasətinə qarşı üsyanlar
21. Azərbaycan I dünya müharibəsi illərində
22. 1918-ci il mart Soyqırımı.
23. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920)
24. Azərbaycanda sovet rejiminin yaradılması, DQMV-nin və Naxçıvan MSSR-in təşkili
25. Azərbaycan 1941-1945-ci illər II dünya müharibəsi illərində
26. Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycan SSR-də apardığı quruculuq işləri
27. 1990-cı il 20 Yanvar faciəsi
28. Xocalı faciəsi (1992)
29. Birinci Qarabağ müharibəsi. Azərbaycan torpaqlarının işğalı
30. Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı (1993)
31. "Əsrin müqaviləsinin" imzalanması. Azərbaycanın yeni neft strategiyası
32. 2003-cü ildə İlham Əliyevin Prezident seçilməsi və Azərbaycanın davamlı inkişafı
33. 2016-cı il Aprel döyüşləri
34. Azərbaycan Respublikasının xarici əlaqələri
35. İkinci Qarabağ müharibəsi. Zəfər Qələbəsi

CamScanner ilə skan edilib

"Azərbaycan tarixi" fənninin sillabusu 050408-Menecment, 050402-Biznesin idarə edilməsi , 050409-Mühasibat, 050404-Dövlət və bələdiyyə idarəetməsi, 050809-Turizm bələdçiliyi, 050407-Marketinq , 050810-Turizm işinin təşkili ixtisasları üzrə (proqram) tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus "Tarix və onun tədrisi metodikası" kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir (14 fevral, 2025-cü il, protokol № 8).

**Kafedra müdiri : ____________ dos. Kamal Mahmudov**

**Fənn müəllimi : ____________ dos. Asif İmanlı**

CamScanner ilə skan edilib